

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 239 (21.140)

*16 dekabr 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Polşa Respublikası Baş nazirinin müavini, İqtisadiyyat naziri, Azərbaycan-Polşa iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Polşa tərəfindən həmsədri Yanuş Pexoçinskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Malta Respublikasının Baş naziri Cozef Muskatın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dekabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad rayonuna səfərə gedib.

Prezident İlham Əliyev əvvəlcə Sabirabad şəhərinin mərkəzi meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Dövlətimizin başçısı rayonda bir sıra infrastruktur və sosial təyinatlı obyektlərin açılışında iştirak edib.

## H.K.Kərimova general-mayor hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar nazirinin müavini polkovnik Hikmət Kərim oğlu Kərimova general-mayor hərbi rütbəsi verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 15 dekabr 2014-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 15 dekabr tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da vardır.

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abdullayev Şahin Mahmudağa oğlu

Yolçuyev Mehman Alı oğlu

# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

*(Əvvəli qəzetin ötən sayında)*

**Ulu öndər Heydər ƏLİYEV:** ***Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsinə əyani sübutdur.***



Cari ildə diri çəkidə 195 min ton ət, 1070 min ton süd, 550 milyon ədəddən çox yumurta, 12 min tona yaxın yun və 70 tondan çox barama istehsal olunmuş, heyvandarlıq məhsulları istehsalı 1999-cu ilə nisbətən 3,7 faiz artmışdır.

Bitkiçilik və heyvandarlıq məhsulları istehsalında qazanılmış uğurlar kənd təsərrüfatının ümumi məhsulunun keçən illə müqayisədə 12,0 faiz artmasına imkan vermişdir.

Kənd təsərrüfatında aparılan islahatları dəstəkləmək, bu sahədə çalışan adamlara kömək etmək və problemləri aradan qaldırmaq məqsədilə 1999-cu ilin yazında xüsusi qanun və fərmanlar qəbul edilmişdir. Kənd təsərrüfatı istehsalçılarının, torpaq vergisi istisna olmaqla, digər vergilərdən 5 il müddətinə azad edilməsi, həmçinin büdcəyə olan vergi borclarının silinməsi, onlara yanacağın (neft məhsullarının) güzəştli satışı və digər tədbirlər bu sahədə dövlət qayğısının təzahürüdür. Həmin tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatı istehsalına əhəmiyyətli təsir göstərmişdir. Bu tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur. Bu sahədə görülən işlərin məqsədyönlü və sistemli şəkildə aparılması üçün aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair dövlət proqramı təsdiq edilmişdir.

2000-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələrindən 4,2 trilyon manat həcmində investisiya yönəldilmiş, 2,0 trilyon manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. Keçən illə müqayisədə istifadə olunmuş investisiyanın məbləği 2,3 faiz, tikinti-quraşdırma işlərinin həcmi 2,4 faiz artmışdır. Əsaslı vəsaitin 51,0 faizini və ya 2,1 trilyon manatını xarici investisiya təşkil etmiş, 3,4 trilyon manatı, yaxud 81,3 faizi istehsal təyinatlı obyektlərin inşasının davam etdirilməsinə sərf olunmuşdur. İlin əvvəlindən Yenikənd Su Elektrik Stansiyası, 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzində gücü 55 min kvt olan yeni qaz-turbin elektrik qurğusu, "Qurtuluş" qazma qurğusu, "Azərneftyağ" İstehsalat Birliyində bitum qurğusu kompleksi, 52,9 km uzunluğunda baş Mil-Muğan kollektorunun ikinci hissəsi, Naxçıvan Dövlət Universitetinin tədris korpusu, Bakı şəhərində Mərkəzi Klinik Xəstəxana, ümumi sahəsi 302,5 min kvadratmetrə çatan yaşayış evləri, 1906 yerlik ümumtəhsil məktəbləri, 40 çarpayılıq xəstəxana, növbədə 70 nəfəri qəbul etməyə imkan verən ambulator-poliklinika müəssisəsi və sair istifadəyə verilmişdir. Cari ildən "Şimal" DRES-in yenidən qurulmasına və Ələt-Qazıməmməd avtomobil yolunun tikintisinə başlanmışdır.

Nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən il ərzində 80 milyon ton yük və 880 milyon nəfər sərnişin daşınmış, keçən ilə nisbətən yük daşınması 17,3 faiz, sərnişin daşınması 2,1 faiz artmışdır. Yük daşınmasının 54,6 faizi, sərnişin daşınmasının 83,5 faizi qeyri-dövlət bölməsinin nəqliyyat vasitələri ilə həyata keçirilmişdir.

Rabitə müəssisələri tərəfindən ilin əvvəlindən əhaliyə, müəssisə və təşkilatlara 700 milyard manatdan çox, yaxud keçən ilə nisbətən 33,6 faiz çox rabitə xidməti göstərilmişdir. Xidmətlərdən əldə edilmiş gəlirlərin 61,3 faizi qeyri-dövlət bölməsinin payına düşür.

İlin əvvəlindən əhaliyə 12,8 trilyon manatlıq istehlak malları satılmış və pullu xidmət göstərilmişdir. Əmtəə dövriyyəsi 9,8 faiz artaraq 10 trilyon manatdan çox, pullu xidmətlərin həcmi isə 5,7 faiz artaraq 2,5 trilyon manata çatmışdır.

Cari ildə xarici ölkələrlə 2796 milyon dollar məbləğində, yaxud keçən illə müqayisədə 88,1 faiz çox ticarət əməliyyatları aparılmışdır. Əmtəə dövriyyəsinin 63,3 faizini ölkədən ixrac olunmuş mallar, 36,7 faizini isə idxal məhsulları təşkil etmiş, 680 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. Əmtəə mübadiləsinin 80,7 faizi uzaq xarici ölkələrlə, 19,3 faizi MDB dövlətləri ilə aparılmış, ticarət əlaqələri uzaq xarici ölkələrlə 2,2 dəfə, MDB dövlətləri ilə 18,0 faiz artmışdır.

İstehlak mallarının qiymətləri və xidmət tarifləri il ərzində keçən illə müqayisədə 1,8 faiz bahalaşmışdır. Lakin eyni zamanda orta aylıq əməkhaqqı 15,0 faiz artaraq 204,2 min manat, əhalinin adambaşına pul gəlirləri isə 11,0 faiz çoxalaraq 185,4 min manat təşkil etmişdir.

İqtisadi yüksəlişin həlledici şərti hesab olunan investisiya qoyuluşu son illər artmaqda davam edir. Belə ki, 1996-cı ildə kapital qoyuluşunun həcmi 65 faiz, 1997-ci ildə 67 faiz, 1998-ci ildə isə 45 faiz artmışdır. Kapital qoyuluşunun artmasında ölkəmizə xarici kapital axını həlledici rol oynayır. 1996-2000-ci illərdə ölkə iqtisadiyyatına 5,0 milyard ABŞ dolları həcmində xarici investisiya yönəldilmişdir. İndi Azərbaycanda yalnız neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə (rabitə, maşınqayırma, yeyinti, xidmət və sair) xarici investisiya qoyuluşu xeyli artmışdır. Nəticədə, xarici investisiyaların ümumi həcmində qeyri-neft sektorunun payı 1996-cı ildə 33 faiz, 1997-ci ildə 40 faiz olmuşdusa, 1999-cu ildə 50 faizə çatmışdır. Hazırda Azərbaycanda adambaşına 150 ABŞ dollarına yaxın xarici investisiya düşür ki, bu da MDB məkanında ən yüksək göstərici hesab olunur.

Azərbaycanın xarici şirkətlərlə bağladığı neft müqavilələri çərçivəsində neft sənayesinə 60 milyard ABŞ dolları həcmində investisiya qoyulması nəzərdə tutulur. Neft satışından əldə edilən gəliri səmərəli şəkildə ölkəmizin sosial-iqtisadi tərəqqisinə istifadə etmək məqsədilə hazırda xüsusi neft fondu yaradılmışdır.

Ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsinə əyani sübutdur.

Ölkədə islahatların dərinləşdirilməsində özəlləşdirmə prosesi həlledici yer tutur. Son illər bu sahədə xeyli işlər görülmüşdür, artıq kiçik özəlləşdirmə başa çatmışdır. Ölkədə ticarət, ictimai iaşə və bütün xidmət obyektləri, demək olar ki, iş adamlarının əlində cəmlənmişdir. Orta və iri sənaye müəssisələrinin özəlləşdirilməsinə başlanmışdır.

Hazırda özəlləşdirmədə yeni mərhələ başlanır. Dövlət əmlakının özəlləşdirilməsi haqqında yeni qanunun və II Dövlət Özəlləşdirmə Proqramının qəbul olunması bu prosesə yeni təkan verəcək, onun daha səmərəli aparılmasını təmin edəcəkdir. Ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən strateji obyektlərin (metallurgiya, maşınqayırma, yanacaq, neft kimyası, infrastruktur sahələr və sair) özəlləşdirilməsinə hazırlıq işləri gedir. Bu isə hər bir obyektə fərdi yanaşma tələb edir. Odur ki, hər bir belə obyektin ölkə iqtisadiyyatındakı yeri və rolu nəzərə alınmaqla onun özəlləşdirilməsi planı işlənib hazırlanacaqdır.

Azərbaycan dövlətinin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. Bu məqsədlə ölkədə sahibkarlığın inkişafı üçün müvafiq hüquqi baza yaradılmışdır. Özəlləşdirmə tədbirlərinin həyata keçirilməsi və sahibkarlığın inkişafına şərait yaradılması nəticəsində hazırda Ümumi Daxili Məhsulda özəl bölmənin payı 62 faizə, o cümlədən sənayedə 43 faizə, kənd təsərrüfatı və ticarətdə 98 faizə, tikintidə 77 faizə, yük daşınmasında 45 faizə, sərnişin daşınmasında 80 faizə çatmışdır.

Bu gün ölkədə sahibkarların hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq, sahibkarların hüquqlarını müdafiə edən, onların fəaliyyətinə yersiz müdaxilənin və əsassız yoxlamaların qarşısını alan iki fərman (1996-cı il 17 iyun tarixli və 1999-cu il 7 yanvar tarixli) qəbul edilmişdir. Ölkədə əlverişli sahibkarlıq mühiti yaratmaq məqsədilə bundan sonra da müvafiq tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir.

Qeyd etmək lazımdır ki, aparılan islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur və bu sahədə müntəzəm olaraq məqsədyönlü iş aparılır. Son illər əməkhaqqının artırılması barədə dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq nominal əməkhaqqı xeyli artmışdır. Son 5 ildə (1994-1999-cu illər) orta aylıq əməkhaqqı 12 dəfə artaraq 184,4 min manat təşkil etmişdir. 2000-ci ilin yeddi ayı ərzində bu göstərici artmaqda da davam etmiş və hazırda bir işçinin aylıq orta əməkhaqqı 204,2 min manata bərabərdir.

Burada mühüm bir cəhəti də nəzərə almaq lazımdır ki, əməkhaqqının artımı inflyasiyanın çox aşağı səviyyədə olması (son iki ildə isə deflyasiya – istehlak qiymətlərinin aşağı düşməsi) şəraitində baş vermişdir. Əgər 90-cı illərin birinci yarısında inflyasiyanın artımı əhalinin pul gəlirlərinin artım sürətini üç dəfə üstələyirdisə, son 5 il ərzində isə, əksinə, əhalinin pul gəlirinin artım sürəti inflyasiyanın səviyyəsini 2,5 dəfədən çox qabaqlamışdır. Başqa sözlə, əhalinin alıcılıq qabiliyyəti 2,5 dəfə artmışdır.

*(Ardı qəzetin növbəti sayında)*



# Naxçıvan: inkişafın yeni mərhələsi

Hər bir ölkədə inkişaf o zaman təmin olunur ki, onun qarantı olan vahid konsepsiya və bu konsepsiyanı əməli işə çevirən siyasətçilər olsun. Vətəni, xalqı böyük hədəflərə doğru aparmaq qüdrətində olan yetkin siyasi liderlər isə az-az yetişir. 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevlə birgə çalışaraq böyük dövlətçilik təcrübəsi qazanan cənab Vasif Talıbovun 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə qədim Naxçıvanın tarixində yeni bir inkişaf səhifəsi açılmışdır. Bu dövrdən başlayaraq muxtar respublikada həyata keçirilən tədbirlər əməl və əqidə birliyinin nəticəsi kimi yüksək dəyərə malikdir.

***"Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm"***, – deyən Ali Məclisin Sədri Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoymuşdur. Muxtar respublikamızda əldə olunan nəticələr seçilən düzgün siyasi xəttin bəhrəsi olmaqla yanaşı, həm də rəhbər faktorunun real siyasi fəaliyyətdə təsdiqidir. Bu gün ulu öndərin ideyalarına sadiqlik əsasında həyata keçirilən islahatlar Naxçıvanın gələcək inkişafına təminat verir.

Müasir Naxçıvan, sözün əsl mənasında, Heydər Əliyev siyasətinin reallığıdır. Muxtar respublikada hansı sahəyə baxsan, orada geniş yenidənqurma işlərinin aparıldığının şahidi olarsan. Ötən dövr ərzində elə böyük nailiyyətlər əldə edilmişdir ki, bu uğurların blokada şəraitində qazanılması, doğrudan da, möcüzədir. Naxçıvanın inkişafdan intibaha qovuşması düzgün idarəetmənin nəticəsi, Vətən sevgisinin, yurd sahibliyinin misilsiz nümunəsidir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirərkən bir məsələni daim ön planda saxlamışdır ki, bu da təhsil quruculuğudur. Elm və təhsili davamlı iqtisadi inkişafın əsası hesab edən dahi şəxsiyyət deyirdi ki, ***"Hər bir dövlət əgər istəyirsə ki, öz inkişafını təmin etsin, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir"***. Muxtar respublikada 1996-cı ildən başlayaraq həyata keçirilən islahatların mərkəzində də məhz təhsil infrastrukturunun müasirləşdirilməsi dayanmış, Naxçıvanda elm və təhsil quruculuğu inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Ötən dövrdə müasir informasiya texnologiyaları ilə təmin olunmuş 200-dən artıq məktəb binası istifadəyə verilmiş, orta ixtisas və ali təhsil müəssisələri üçün tədris korpusları tikilmişdir. Bu gün Naxçıvan şəhərində də, ucqar dağ kəndlərində də şagirdlərin kompüterlərdən, elektron lövhələrdən, müasir laboratoriyalardan, fondunda on minlərlə ədəbiyyat olan kitabxanalardan və internetdən istifadə etməsini təkcə təhsilin inkişafı sahəsində görülən cari işlər kimi səciyyələndirmək düzgün deyil. Bu, bütövlükdə ölkə Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi, xalqın və dövlətin gələcək müqəddəratına hesablanmış ***"İqtisadi resursların insan kapitalına çevrilməsi"*** prinsipinin əməli iş müstəvisinə çəkilməsinin əyani ifadəsidir.

Müasir dünyada iqtisadi potensial inkişafın əsas hərəkətverici qüvvəsi hesab olunur. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi islahatlar dayanıqlı inkişafı təmin etmişdir. Ötən dövrdə muxtar respublikada bütün makroiqtisadi göstəricilərin artım tempi təmin edilmiş, 2013-cü ildə Ümumi Daxili Məhsulun həcmi 1995-ci ilə nisbətən 54 dəfə, sənaye məhsulunun həcmi 95 dəfə, əsas kapitala yönəldilən investisiyalar 340 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 9 dəfə, nəqliyyat sektorunda yük daşınması 24 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 107 dəfə, pərakəndə əmtəə dövriyyəsi 30 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 47 dəfə, ixracın həcmi 201 dəfə, əhalinin gəlirləri isə 55 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasında rayonların tarazlı inkişafı təmin edilmiş, kəndlə şəhər arasındakı fərq aradan qaldırılmışdır. Şəhər və rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində istifadəyə verilən yeni sosial obyektlər, tikilən inzibati binalar, yaradılan istehsal sahələri, açılan iş yerləri, ilk növbədə, əhalinin sosial problemlərinin həllinə və nəticə etibarı ilə, bölgələrin inkişafına səbəb olmuşdur. 1995-ci ildən ötən dövr ərzində muxtar respublikada 252 inzibati bina, 369 mədəniyyət müəssisəsi, 41 idman obyekti, 6325 istehsal, xidmət və digər infrastruktur obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Müasir Naxçıvanın inkişafında əsas diqqət çəkən məsələlərin önündə ərzaq və enerji təhlükəsizliyinin təmin olunması gəlir. Hər iki amil həyata keçirilən islahatların prioritet istiqamətini təşkil edir. Lakin blokada şəraitində bunlara nail olmaq, hətta bu sahələr üzrə ixrac potensialı yaratmaq əsl möcüzədir. Əgər 1996-cı ildə muxtar respublikada 1 su elektrik stansiyası vardısa, hazırda elektrik stansiyalarının sayı 7-yə çatdırılmış, yaşayış məntəqələri tamamilə qazlaşdırılmışdır. 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair və 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının qəbul olunması və icrası muxtar respublikada yerli istehsalın həcminin artmasına, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına geniş imkanlar yaratmışdır. Əvvəllər zəruri ərzaq və sənaye məhsullarına olan tələbatını tamamilə idxal hesabına ödəyən muxtar respublikada bu gün 352 növdə məhsul istehsal olunur, 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 336 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir, Naxçıvanın ixrac potensialı artırılır.

Bir zamanlar çörək növbəsində gözləyən, gecələr evində lampa yandıran, həyətindəki ağacı kəsib isinən, yarıac, yarıtox yatan naxçıvanlılar ərzaqla da, enerji ilə də özlərini təmin edəcəklərinə, bu gününü yox, gələcəklərini düşünəcəklərinə, ağac əkib yaşıllıqlar salacaqlarına, bir sözlə, evində, yurdunda rahat yaşayacaqlarına çətin inanardılar. Amma bu günü yaradan, bu xoş həyatı təmin edən muxtar respublika rəhbəri hər kəsdə bu inamı yaratdı. O rəhbər ki, qurub-yaratdığı Naxçıvanla, əslində, Vətəninə, xalqına, ulu öndər Heydər Əliyev yoluna olan sədaqətini göstərir. O rəhbər ki, onun müəllifi olduğu bugünkü intibah hər bir naxçıvanlının qürur mənbəyidir.

Ali Məclisin Sədri öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır. Son 19 ildə məhz bu prinsip üstün tutulmaqla əhalinin sağlamlığının qorunması, müasir tibbi avadanlıqlarla təchiz olunmuş tibb ocaqlarının inşası səhiyyə sahəsində reallaşdırılan mühüm islahatlardandır. Bu dövrdə muxtar respublikada 231 səhiyyə müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Əhalinin dispanserizasiyasının düzgün təşkili, insanlara göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi artıq Naxçıvanda çətin cərrahi əməliyyatların aparılmasına imkan verir. Bir vaxtlar ən adi xəstəliklərin müalicəsi üçün başqa yerlərə üz tutan insanlar artıq yaşadıqları kənddə, qəsəbədə, şəhərdə yüksək tibbi xidmətlə təmin olunublar.

Muxtar respublikada hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə, əhalinin rahat yaşayışının təmini ön planda saxlanılır. Buna yüzlərlə misal gətirmək olar. Elə götürək son illər yaşayış məntəqələrində əhalinin rahat yaşayışının təmin olunması və məskunlaşmanın artması istiqamətində görülən işləri. "Məskunlaşma" deməklə məskunlaşma olmur. Məskunlaşma üçün, ilk növbədə, real zəmin yaradılmalıdır. Muxtar respublika sakinlərin bütün sosial qayğılarla əhatə olunması, məşğulluqlarının təmin olunması, yeni iş yerlərinin açılması, fərdi təsərrüfatların inkişafının dəstəklənməsi hər bir sakində qurub-yaratmaq əzmini artırmışdır. Naxçıvanlılar bunu bir dəfə 1990-1993-cü illərdə ümummilli liderimiz Heydər Əliyevin ətrafında sıx birləşməklə etdilər, öz torpaqlarına sahib çıxdılar. Bu gün ən ucqar dağ kəndlərində belə – Şadada da, Havuşda da, Nürgütdə də, Gərməçataqda da, Ləkətağda da insanlar rahat yaşayır, təsərrüfatlarını genişləndirir, sabaha nikbinliklə baxır, muxtar respublikamızın inkişafına öz töhfələrini verirlər.

Söz kəndlərin inkişafından düşmüşkən, bir məsələni də vurğulamaq yerinə düşər. Bu gün Naxçıvan dünyaya özünün müasir kənd modellərini təqdim edir. Hər il Naxçıvanda abadlaşan kəndlərin sırası genişlənir. Kənd yaşayış məntəqələri rahat yolu, məktəb binası, səhiyyə ocağı, kənd və xidmət mərkəzləri ilə seçilir. Bu sosial obyektlərdə yaradılan şərait əhalinin rahatlığının təmin olunmasına, kəndlərin inkişafına hesablanmışdır. Çünki Ali Məclis Sədrinin də qeyd etdiyi kimi, ***"Kəndlərin inkişafı həm də ölkənin inkişafı deməkdir"***.

Artıq nə blokada çətinlikləri, nə düşmən təhdidləri naxçıvanlıları qorxutmur. Onlar ümummilli liderimizin idarəçilik məktəbinə sadiqdirlər. Bu məktəbin xalqımıza, dövlətimizə bəxş etdiyi bəhrələri öz həyatlarında görürlər. Hər bir inkişaf modeli, ilk növbədə, milli xüsusiyyətləri tam şəkildə özündə əks etdirməlidir və yalnız bu halda onun uğuru gözlənilәndir. Bu gün muxtar respublikada sosial-iqtisadi islahatlar həm də milli dəyərlərə, tariximizə sahiblik kontekstində həyata keçirilir. Naxçıvanda tarixi-mədəni irsimizə sonsuz qayğı ilə yanaşılır, xalqımıza xas olan milli-mənəvi dəyərlər qorunub saxlanılır. Muxtar respublikada bu məsələyə, ilk növbədə, Naxçıvanın qədim tarixinin öyrənilməsi ilə başlanılmışdır. 1996-cı ildən bəri muxtar respublikada keçirilən beynəlxalq simpozium və konfranslar bu mənada xüsusi əhəmiyyət daşıyır. İlkin yaşayışın və şəhərsalma mədəniyyətinin arqumentləri kimi Naxçıvandakı tarixi abidələrin pasportlaşdırılması və bərpası işinə ciddi diqqət yetirilməsi, Naxçıvan Duzdağ mədəniyyətinin yeni elmi istiqamət kimi müəyyənləşdirilməsi və bu sahədə tədbirlərin görülməsi doğma Vətən tarixinin düzgün araşdırılması zəruriliyinə diqqətdən qaynaqlanır. Qeyd olunan dövr ərzində 1202 tarixi abidə öyrənilərək pasportlaşdırılmış, 60-dan artıq tarixi abidədə bərpa və yenidənqurma işləri aparılmışdır. Milli dəyərlərimizə, adət-ənənələrimizə sahiblik bu gün muxtar respublikada prioritet məsələdir.

Bu gün Naxçıvan Muxtar Respublikasının beynəlxalq miqyasda tanınmasına, çoxəsrlik tarixinin və zəngin mədəniyyətinin öyrənilməsinə dair konkret siyasət həyata keçirilir. Dinamik inkişaf edən Naxçıvan artıq mötəbər beynəlxalq tədbirlərin keçirildiyi, mədəniyyətlərin qovuşduğu məkana çevrilmişdir. Təbii ki, bütün bunlar da son 19 ildə muxtar respublikanın artan nüfuzunun nəticəsidir.

Naxçıvanda mədəniyyətin inkişafı, mədəni irsin qorunub saxlanması diqqət mərkəzində saxlanılır, onun təbliğinə xüsusi diqqət göstərilir. Ötən müddət ərzində muxtar respublikada geniş vüsət almış abadlıq-quruculuq tədbirləri mədəniyyət sahəsini də əhatə etmiş, yeni mədəniyyət müəssisələri – muzeylər, kitabxanalar, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri, teatrlar üçün yeni binalar inşa olunmuş və ya əsaslı təmir edilərək istifadəyə verilmişdir. Həyata keçirilən tədbirlər Naxçıvanın turizm potensialını xeyli artırmışdır. Tarixi, dini-mədəni, kənd və ekoloji turizmin inkişafı üçün yaradılan şərait xarici ölkə vətəndaşları tərəfindən böyük maraqla qarşılanır. Bu gün əyilməzlik simvolu olan Əlincə qalasına, Nuh babaya öz qoynunda yer verən Gəmiqaya dağına rahat qalxan hər bir qonaq eyni rahatlığı Batabata səfər edib Zor bulağın gözündən bir ovuc su içməklə də, Naxçıvan şəhərindəki və rayon mərkəzlərindəki müasir otellərdə dincəlməklə də tapa bilir. Naxçıvanı sabitlik adası adlandırırlar. Burada insanlar nə şəhərdə, nə də kənddə qorxu içində gəzirlər. Artıq hər il Naxçıvana 400 minə yaxın turist səfər edir və bu rəqəm ilbəil artmaqdadır.

Hər bir millətin tərəqqisi həmin millətin gənclərinin malik olduğu potensialdan asılıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir"***. Muxtar respublikada diqqət yetirilən ən vacib məsələlərdən biri də vətənpərvər və təhsilli gənc nəslin yetişdirilməsidir. Buna həm təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə, həm də gənclərin fəaliyyətinin dəstəklənməsi yolu ilə nail olunur. İctimai-siyasi, iqtisadi-mədəni həyatda gənclərin fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardır. Digər tərəfdən gənclərin həyat şəraitinin, xüsusilə onların mənzil təminatının yaxşılaşdırılması muxtar respublikada gənclərə göstərilən qayğının daha bir ifadəsidir.

Bu illər ərzində muxtar respublikada qazanılan nailiyyətlərdən biri də informasiya blokadasının yarılması, ölkə və dünya informasiya məkanına sürətli inteqrasiyanın təmin olunmasıdır. Rabitə və yeni texnologiyaların tətbiqi sahəsində görülən işlər insanların informasiyaya olan tələbatının dolğun ödənilməsinə, xidmətin keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur. Bütün bunların nəticəsidir ki, bu gün sakinlər Naxçıvanın hans bölgəsində yaşamasından asılı olmayaraq, genişzolaqlı və sürətli internetdən, müasir rabitə xidmətindən, IP telefoniya və rəqəmsal televiziya yayımlarından istifadə edirlər.

Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Artıq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikadakı hərbi hissələrinin maddi-texniki təminatı möhkəmləndirilmiş, əsgəri-məişət-yaşayış kompleksləri tikilmiş, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılmış, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılmışdır. Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin gücləndirilməsi, xidmətin nümunəvi təşkili, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikasının müdafiə potensialını xeyli artırmışdır. Naxçıvan Muxtar Respublikasında hərbçi kadrların hazırlanması da diqqət mərkəzində saxlanılır. Hazırda Heydər Əliyev adına Hərbi Liseyin məzunları Azərbaycan Ordusunda öz xidməti vəzifələrini şərəflə yerinə yetirir, Naxçıvan torpağının yetirmələri olan generalların layiqli davamçıları kimi yetişirlər.

Müdrik fikirlərin birində deyilir ki, "siyasi fəaliyyət o zaman məktəb kimi qəbul edilir ki, onun əsl davamçıları vardır". Bu gün ölkəmiz Heydər Əliyev məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf edir. Artıq Azərbaycan dünyada söz sahibi olan, güclü iqtisadiyyata və qüdrətli orduya malik bir dövlətdir. Bu qüdrətli dövlətin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da ulu öndərimizin və onun layiqli davamçısının ideyalarının dönmədən həyata keçirilməsi nəticəsində əsl inkişafa qovuşmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev bu barədə demişdir: ***"...Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır"***.

Bu il Naxçıvan muxtariyyətinin 90 yaşını qeyd edir. Tarixi min illərlə ölçülən bu diyarın son 90 ili bir çox istiqamətlərdə qazanılan nailiyyətlərə, uğurlarla əlamətdar olmuşdur. Lakin muxtariyyətin 1995-ci ildən ötən dövrü intibah dövrü kimi səciyyələndirilir. İntibaha isə, sadəcə, bugünkü inkişafla nail olunmur. Naxçıvan intibahı keçmişlə bu günün vəhdətində gələcəyə hesablanmış inkişaf modelidir.

## Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğunda ulu öndər Heydər Əliyevin əziz xatirəsi yad edilmişdir



*Dekabrın 11-də Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir.*

Əvvəlcə mərasim iştirakçıları ümummilli liderin Qars şəhərinin "Ərzurum" küçəsindəki abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri qoymuşlar.

Sonra Baş Konsulluqda mərasim keçirilmişdir. Əvvəlcə ümummilli liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Dövlət himnləri səsləndirilmişdir.

Mərasimdə çıxış edən Baş konsul Ayxan Süleymanov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətlərindən danışmışdır. Qeyd olunmuşdur ki, dahi rəhbərin siyasi xətti ölkəmizin hərtərəfli inkişafına, əhalinin sosial rifah halının yüksəldilməsinə səbəb olmuşdur. Bu gün Azərbaycan Respublikası ulu öndərin müəyyənləşdirdiyi yolla gedərək daha da inkişaf edir, beynəlxalq aləmdə öz nüfuzunu artırır.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafından bəhs edən Baş konsul ölkələrimizin birgə iştirakı ilə həyata keçirilən beynəlxalq enerji və nəqliyyat layihələrinin əhəmiyyətini vurğulamış, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan bu layihələrin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd etmişdir.

Mərasimdə ulu öndər Heydər Əliyevin ruhuna dualar oxunmuş, şeirlər bədii qiraət olunmuş, ehsan süfrəsi açılmışdır. Tədbir iştirakçıları ümummilli liderin həyat yolundan və siyasi fəaliyyətindən bəhs edən "Əbədiyyət yolu" adlı sənədli filmə baxmış, kitab, jurnal və fotoşəkillərdən ibarət sərgi ilə tanış olmuşlar.

Mərasimdə Qars valisi Günay Özdemir, Qars Şəhər Bələdiyyəsinin sədri Murtaza Karaçanta, şəhərin digər rəsmi qurumlarının nümayəndələri, Qars Qafqaz Universitetinin professor-müəllim heyəti və tələbələri, ziyalılar və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Dekabrın 12-də ümummilli lider Heydər Əliyevin xatirəsi Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğunun İqdır bölməsində də anılmışdır.

Tədbir iştirakçıları ulu öndərin İqdır şəhər mərkəzindəki Heydər Əliyev Parkında əzəmətlə ucalan abidəsini ziyarət etmiş, abidə önünə əklil və tər güllər düzmüşlər.

Azərbaycanın Qarsdakı Baş Konsulluğunun vitse-konsulu dahi siyasətçi Heydər Əliyevin Azərbaycan-Türkiyə əlaqələrinin inkişafındakı rolundan bəhs etmiş, ikitərəfli münasibətlərin bu gün də uğurla davam etdirildiyini vurğulamışdır. Tədbirdə İqdır valisinin müavinləri Muhlis Arslan və Mevlüd Özmen, İqdırdakı Azərbaycan dərnəyinin təmsilçiləri və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Hər iki tədbir kütləvi informasiya vasitələri tərəfindən ətraflı işıqlandırılmışdır.

## Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilmişdir



*Dekabrın 11-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.*

Mərasimdə ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, ruhuna dualar oxunmuşdur.

Tədbirdə Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əli Əlizadə çıxış edərək ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti barədə mərasim iştirakçılarına məlumat vermiş, ümummilli liderin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən danışmışdır. Qeyd olunmuşdur ki, ümummilli lider istər sovet imperiyası dövründə, istərsə də müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə ölkəmizdə ardıcıl islahatlar həyata keçirmiş, sürətli sosial-iqtisadi inkişafa və sabitliyə nail olunmuşdur. Azərbaycanın bugünkü sürətli inkişafı, mövcud sabitlik ümummilli liderin müdrik siyasətinin bəhrəsidir.

Baş konsul Azərbaycan-İran əlaqələrinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirmiş, bu gün hər iki ölkə arasındakı münasibətlərin uğurla inkişaf etdiyini diqqətə çatdırmışdır. Vurğulanmışdır ki, dost və qonşu ölkə olan İranda, o cümlədən Təbriz şəhərində də hər il ulu öndər Heydər Əliyevin xatirəsi böyük ehtiramla yad edilir.

Sonra ümummilli lider Heydər Əliyevin mənalı həyat yolundan və çoxşaxəli siyasi fəaliyyətindən bəhs edən film nümayiş etdirilmiş, ehsan süfrəsi açılmışdır.

Anım mərasimində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri, Təbriz şəhərinin fərmandarı, İranın Şərqi Azərbaycan Valiliyinin nümayəndələri, Türkiyənin Təbrizdəki Baş konsulu və Baş Konsulluğun əməkdaşları, eləcə də ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Tədbir kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılmış, İranın "Dəniz" qəzetində ulu öndərlə bağlı məqalə dərc olunmuşdur.

**"Şərq qapısı"**

## Beş ilə bir bina yox, bir ilə beş bina

### *"Oğlumun nağılları, yaxud bizim həqiqətlərimiz" silsiləsindən yeddinci nağıl*

Həftənin şənbə günü olduğundan və sabahısı dərsə getməyəcəyindən oğlum dərs kitablarına birgünlük "istirahət vermişdi". Hər gün sabahkı dərslərinə hazırlaşdığından heç nağıl dinləmək də yadına düşmürdü. Ötən gün isə əsnəyə-əsnəyə yanıma gəlib başını dizimə qoyanda bildim ki, yenə nağıl istəyəcək. Düşüncələrimi tam bitirməmişdim ki, dikəlib üzümə baxdı və dostyana boynumu qucaqlayıb dedi:

– Dədə, sənin danışdığın nağıllardakı o uşaq üçün yaman darıxmışam. O uşaq haqqında başqa nağıllar da bilirsənmi?

Düşüncələrimi pəncərəmdən boylanan ay işığının göyü aydınladan parlaqlığında düyünləyib atamla olan bir söhbətimizi xatırladım. Həmin söhbətimizi oğlumun nağıl kimi qəbul edəcəyini düşünüb pıçıltıyla dilləndim:

– Bilirəm, oğlum, bilirəm. Get, gəlirəm, danışam.

* * *

25-26 il bundan əvvəl idi. Balaca bir kənddə sənin kimi balaca bir oğlan uşağı məktəbin 1-ci sinfinə qədəm qoymuşdu. Dərs keçməyin çox çətin olduğu, partaların sıradan çıxdığı, siniflərin qışda buz bağladığı, pəncərələrinin şüşə əvəzinə kartonlarla örtüldüyü qaranlıq sinif otaqları yayılan sevindirici bir xəbərlə birdən-birə işıqlaşmışdı. Kənddə yeni məktəb binası tikiləcəyi xəbəri böyüklər qədər balacaların da gözlərini güldürmüşdü.

Bir neçə aydan sonra kəndin yuxarı hissəsində yer ayrılmış, yeni ikimərtəbəli məktəb binasının tikintisinə başlanmışdı. O zaman həmin balaca oğlan birinci sinfə təzəcə qədəm qoymuşdu.

Nağıl dili yüyrək olar. Günlər həftələri, həftələr ayları, aylar illəri əvəzləyirdi. Artıq iki il keçmişdi. Amma hələ də yeni məktəb binası tikilib qurtarmamışdı.

Bu yerdə oğlum gözlərini azca aralayıb üzümə baxdı. Deyəsən, ciddi, yoxsa qeyri-ciddi olduğumu müəyyən etməyə çalışırdı. Heç nə olmamış kimi danışmağa başlamaq istəyirdim ki, sözümü kəsdi:



– Dədə, elə şey olar? İki ilə ikimərtəbəli məktəb binası nədir ki, onu tikib qurtara bilməyiblər. Axı mən bağçaya gedəndə bir il çəkmədi ki, bağçamız üçün üçmərtəbəli təzə bina tikdilər. Məktəbə gedəndə də 5-6 aya üçmərtəbəli gözəl məktəb binasını tikib qurtardılar.

Bir də ki, ay dədə, elə şey olar ki, iki ilə bir məktəbi tikib qurtarmayalar. Axı Novruz bayramında Nursu kəndində – nənəmgildə qalanda babam dedi ki, kəndimizdə yeni məktəb tikəcəklər. Yadımda qalmayıb, ancaq başqa yenə nəsə tikəcəklərini də dedi. Dünən səninlə kəndə gedəndə həmin binaların yanından keçdik. Necə olur ki, yarımil ərzində orda 3-4 bina tikirlər, amma o vaxtı iki ildə bir bina tikə bilməyiblər?!

Oğlumun gördükləri, eşitdikləri və şahid olduqları qarşısındakı təəccüblü baxışı və haqlı müdaxiləsi məni də xeyli təəccübləndirmişdi. Doğrudan da, 25-30 il bundan əvvəl nəinki bir ildə iki bina, hətta iki-üç ildə yeni və müasir bir binanın tikilməsinə sevinirmişlər.

Oğlumun sualına verəcəyim cavabı düşünə-düşünə o dövrdə yaşamış insanlardan eşitdiklərimi bir daha xatırladım.

Mərhum jurnalist həmkarım Məmməd Məmmədov bir dəfə söhbət əsnasında demişdi ki, kəndlərində – Şərur rayonunun Çərçiboğan kəndində 5 ilə bir xəstəxana binası tikiblər. Düzü, eşidəndə mən də buna inanmamışdım. Bu yaxınlarda isə yaşlı iş yoldaşlarımdan biri Atatürk prospektində yerləşən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin binasını göstərərək dedi ki, bunu 5 ilə ancaq tikib qurtardılar. Hətta maraqlı bir hadisə də danışdı.

Deməli, həmin vaxt bu bina tikilməyə başlayanda bir valideyn oğlunu məktəbin birinci sinfinə aparırmış. Üstündən illər keçir. Oğlan 2-ci, 3-cü, 4-cü sinfi də həmin tikintinin yanından keçib dərsə gedərək başa vurur. Beşinci sinfə başlayanda atasından soruşur ki, ata, bəs bu binanı nə vaxt tikib qurtaracaqlar? Atası da cavabında deyir ki, niyə tələsirsən, oğlum, bu bina da səninlə bir böyüyür. Sən məktəbi qurtaranda bu binanı da tikib qurtaracaqlar.

Bu eşitdiklərimdən sonra oğlumun gördüklərinə, şəxsi müşahidələrinə əsasən mənə ünvanladığı sualını çox yaxşı anlayırdım. Mən isə onun yuxuya getməsi üçün sözlərimə davam etməyə başladım.

* * *

Səninlə eyni yaşda olan o balaca oğlanın yaşadığı dövrdə 5 ilə bir bina tikilməsi böyük "uğur" sayılırdı. Amma indi təkcə bir balaca kənddə bir ilə 5 binanın tikilməsi adi hal alıb.

O zamanlar uzaq-uzaq yerlərdə, dağların arasında yerləşən kəndlərin nə rahat yolları olurdu, maşınlar gedib gəlsin, nə isti və səliqəli məktəbləri vardı ki, uşaqlar üşümədən müəllimlərinə qulaq assınlar; nə dükan-mağazaları vardı ki, özlərinə lazım olanları ordan alsınlar, nə də kitabxana, klub və digər iş yerlərinin şəraiti vardı ki, rahatca istifadə etsinlər.

Oğlum bu dediklərimə inanmaq istəmirmişcəsinə yarıyuxulu şəkildə dilləndi:

– Bu danışdıqlarına indi heç bir uşaq inanmaz axı, dədə. Sinfimizdəki Fuad da, Süleyman da, Aynur da, Sadiq də sənin dediklərinə gülərlər. Elə biləcəklər, nağıl danışırsan. Axı biz dərsə gedəndə görürük ki, hər yerdə nəsə tikirlər. Süleymangilin məhəlləsində bir bina tikirlər, Aynurgilin məhəlləsində bir bina. Marşrutdan düşüb məktəbimizə getdiyimiz yerdə də lap uca bir bina tikiblər. Heç bir il deyil, az qalırlar qurtaralar.

* * *

Oğlum sözlərini qurtarıb gözlərini tavana dikdi. Bir müddət ikimiz də səssizcə dayanıb aramızda danışdıqlarımızı düşündük. Fikirlərimi bir daha "ələkdən keçirib" oğluma dönəndə gözlərini yumub yuxuya getdiyini gördüm.

Artıq qərara gəldim ki, bizim uşaqlıq həqiqətlərimizi ona nağıl kimi danışmayacağam. Çünki o artıq nələrin nağıl, nələrin həqiqət olduğunu öz müşahidələri əsasında müqayisə edərək nəticə çıxara bilir. Bugünkü danışdıqlarımın da, əslində, nağıl yox, əsl həqiqət, atasının uşaqlıq həqiqətləri olduğuna əmin olmuşdu.

İndi o da yaxşı anlayırdı ki, 25-30 il bundan əvvəl beş ilə bir bina tikmək normal qarşılanırdısa, indi adicə bir kənddə bir ilə beş bina tikmək normal hal sayılır.

*Hələ mən onun uşaq olduğunu düşünüb təkcə ötən 2013-cü ildə, başa çatmaqda olan 2014-cü ildə nəinki beş bina, muxtar respublika üzrə onlarla yeni və müasir məktəb, səhiyyə, mədəniyyət, iaşə, yaşayış binalarının tikildiyini deməmişdim. Amma oğlum bunları artıq əvvəlki nağıl adıyla danışdığım həqiqətlərdən dərk eləmişdi.*

**Elxan YURDOĞLU**

# Tikdim ki, izim qala

## Yeniləşən NAXÇIVAN

"Abadlıq", "Quruculuq"
Sözləri yazılardı
dünənki şüarımda...
Ötən illər içində
Qurulmayan nə qaldı
bu abad diyarımda?!

Kökündən dəyişildi
hər kənd, hər şəhərimiz.
Gün-gündən gözəl gəldi,
müjdələrlə açıldı
hər yeni səhərimiz.

Şəhərlər dursun yana,
hər kənd öz payın aldı –
Pay düşdü Kükusünə,
Tivisinə, Bistinə...
Uğurlar, qələbələr
yağış tək yağır hər gün
Gün-gündən gözəlləşən
bu diyarın üstünə.

Bu uğur yağışında
çətirsiz gəzmək nə xoş...
Elin bu şad günündə
qol götürüb el ilə
Ürəkdən süzmək nə xoş...

Ötən illər ərzində
Min möcüzə, min sehr
görübdür gözlərimiz.
Bircəciyin yazmağa,
Tək birini yozmağa
yetməyir ilhamımız –
Acizdir qələmimiz...
Acizdir sözlərimiz...

De, necə yazsın qələm?!
De, necə yozsun ürək?!
Bu boyda ehtişamı
Yazmağa ən azından
Nizami təbi gərək.


Naxçıvan şəhərində Gənclər Mərkəzi


Şərur rayonunun Axura kəndində tam orta məktəb

Hər addımda bir sehr,
hər sehrdə min məna...
Dünən gördüyün küçə,
Dünən gördüyün səki
tanış gəlməyir sənə...

Bu qədər dəyişiklik
mümkünmü bu tezliyə?!
Baxıb heyrətlənirsən
Dünən "uçan" binanı
saray edən "üzlüy"ə.

"Saray" dedim, yadıma
əski zamanlar düşdü –
Şəki, Şirvan sarayı...
İndi hər təşkilatın,
İndi hər idarənin
varıdır "xan sarayı".

Əsl "SARAY" adına
Layiq bina vardımı,
Bu günə, dünənəcən?!
Ümummilli liderin
Adına layiq saray
Tapmaq çətindir, çətin
ha boylan dünənə sən!

İndi hər bir tikili
Onun adına layiq,
Onun sanına layiq...
"SARAYLARIN SARAYI"
Onun şanına layiq.

Bəli, il dəyişibdir...
Dünənki şüar idi –
"Hər şeyi YENİLƏMƏK".
Dəyişməyən nə qaldı?!
Elə köhnə qalıbsa,
Göstərin, yeniləyək!!!

Qafar QƏRİB


Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi


Naxçıvan şəhərində yaşayış kompleksi


Babək rayonunun Qahab kəndi


Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu



ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və
Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1046